

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 107 (21.259)

2 iyun 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya Respublikası Baş nazirinin müavini və Xarici İşlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Böyük Britaniyanın London şəhərinin Lord meri Alderman Alan Yarrounun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də İraqın Neft naziri Adil Əbdülmehdinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 1 iyun tarixli Sərəncamı ilə mülki aviasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs "Tərəqqi" medalı ilə təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Beynəlxalq Hava Limanının əməkdaşları da vardır.

**"Tərəqqi" medalı ilə**

Hacıyev Səxavət Məmmədəli oğlu

Məmmədova Güllər Sabir qızı

## Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu

*İyunun 1-də Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib.*

Məşğələdən əvvəl tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar. Sonra məktəbin akt zalında "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu" mövzusunda keçirilən məşğələni giriş sözü ilə məktəbin direktoru Namiq Məmmədov açıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərlinin adıçəkilən mövzuda çıxışı olub. Bildirilib ki, ölkəmiz üçün kifayət qədər mürəkkəb və ağır bir dönəmdə xalqına arxa olan ulu öndər Heydər Əliyev Azərbaycanın çağdaş tarixində silinməz izlər qoyub. Dahi şəxsiyyət Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir.

Vurğulanıb ki, taleyin hökmü ilə iki dəfə xilaskarlıq missiyasını üzərinə götürərək hakimiyyətə gələn



görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatıb, ona dayaq olub. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması məhz ümummilli lider Heydər Əliyevin titanik fəaliyyəti sayəsində mümkün olub.

Qeyd edilib ki, ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə muxtar respublikanı işğaldan, məhv olmaqdan, düşmən əlinə keçməkdən xilas etməklə Naxçıvana yeni bir həyat bəxş edib. Dahi şəxsiyyətin rəhbərliyi ilə Naxçıvandan başlanan müstəqillik hərəkatı bütün Azərbaycan siyasi mühitində aparıcı siyasi qüvvəyə çevrilməklə milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb. Üçrəngli bayrağımız ilk dəfə milli liderin sədrliyi ilə Naxçıvan parlamentində qaldırılıb, Sovetlər Birliyinin süqut etmədiyi bir vaxtda cəsarətli addım atılaraq Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılıb. Sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus silah-sursat və texnikanın Naxçıvanda saxlanılması şərtilə buradan çıxarılıb, onların bazasında ilk milli ordu yaradılıb. Bununla yanaşı, xalqımızın başına gətirilən tarixi cinayətə – 20 Yanvar faciəsinə Naxçıvan Muxtar Respublikası Ali Məclisində siyasi qiymət verilib, həmin günün Milli Matəm Günü kimi qeyd olunması, həmçinin 31 Dekabr – Dünya Azərbaycanlılarının Birlik və Həmrəylik Gününün təsis edilməsi qərara alınıb.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, ölkəmizin inkişafında əsas hərəkətverici siyasi qüvvə olan Yeni Azərbaycan Partiyası da həmin dövrdə Naxçıvanda yaradılıb, bununla da müstəqil Azərbaycanın müasir siyasi tarixinin əsası qoyulub. Naxçıvanda ulu öndərin rəhbərliyi ilə ölkə əhəmiyyətli qərarlar qəbul edildiyi bir vaxtda Azərbaycanın digər bölgələrində bunun əksi – siyasi hərc-mərclik, özbaşınalıq, vətəndaş müharibəsi baş qaldırmışdı. Ölkəmizin məhvə sürükləndiyi belə bir vaxtda xalq yeganə xilas yolunu Naxçıvandan başlanan qurtuluşda – ümummilli liderimizin böyük siyasətə qayıdışında tapdı. 1993-cü il iyunun 15-də xalqın təkidli tələblərindən sonra ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ölkəmizin dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi uğrunda mübarizə və yeni Azərbaycanın qurulması dövrüdür. Bu dövrdə ümummilli lider Azərbaycanı tarixin ən qanlı burulğanından çıxara bildi və Azərbaycan tarixinə qurtuluş mübarizəsinin qalibi kimi daxil oldu. Bununla, əslində, istiqlal mübarizəmizin tarixində əsaslı dönüş baş verdi, bir millət kimi qurtuluşumuz başlandı. Mövcudluğunu itirmək təhlükəsindən ümummilli liderimizin sayəsində xilas olmuş ölkəmiz bu müddət ərzində dünya miqyasında özünün geostrateji əhəmiyyətə malik əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük insan potensialından bacarıqla, düşünülmüş şəkildə istifadə edərək Şərqlə Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadir olan bir dövlətə çevrildi.

Sonra məruzə ətrafında məktəbin direktor müavini Həsən Həsənovun çıxışı olub.

Sonda məktəbin 8 müəlliminə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib.

Məşğələyə Heydər Əliyev adına tam orta məktəbin direktoru Namiq Məmmədov yekun vurub.

Səbuhi HƏSƏNOV

## Muzeylər ziyarət olunur

Muzeylərin tariximizin, mədəniyyətimizin təbliğ olunmasındakı, insanların maarifləndirilməsindəki rolunu yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muzeylər bizim tariximizi, mədəniyyətimizi özündə qoruyub gələcəyə daşıyır. ...Lakin iş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsinə, tamaşaçıların muzeylərə cəlb olunmasına da ciddi diqqət yetirilməlidir".*** Elə bu məqsədlə də muxtar respublikada mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, müxtəlif idarə, müəssisə və təşkilatların əməkdaşları muzeylərə gedir, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlarla tanış olurlar.

Mayın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvanşünaslıq" Mərkəzinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olmuşlar. Məlumat verilmişdir ki, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılmışdır. Səkkiz ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Kəngərli nəslindən olan Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrin də kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin, Nəqliyyat Nazirliyi və struktur qurumlarının, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və struktur qurumlarının əməkdaşları Heydər Əliyev Muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları Dövlət Bayrağı Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin kollektivləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Kənd Təsərrüfatı, Səhiyyə nazirliklərinin, Rabitə və Yeni Texnologiyalar Nazirliyi və struktur qurumlarının əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyində olmuşlar.

Muzeylərə gələnlər həmin mədəniyyət müəssisələrinin yaradılması, fəaliyyəti, muzeylərdə nümayiş və mühafizə olunan eksponatlar barədə ətraflı məlumatlar almışlar.

Həmin gün muxtar respublikanın rayonlarındakı idarə, müəssisə və təşkilatların əməkdaşları da müvafiq olaraq rayon ərazisində yerləşən Tarix-Diyarşünaslıq və digər muzeyləri ziyarət etmişlər.

"Şərq qapısı"

## Növbəti seminar-müşavirə Sədərək rayonunda keçirilib

*Sədərək rayonunda "Bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması və qarşıda duran vəzifələr" mövzusunda seminar-müşavirə keçirilib.*

Seminar-müşavirəni giriş sözü ilə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq rayonda bələdiyyələrin fəaliyyəti üçün yaradılan imkanlardan söz açıb, bu imkanlardan səmərəli istifadə olunmasının vacibliyini vurğulayıb. İcra başçısı deyib ki, muxtar respublikanın iqtisadi potensialının güclənməsi bütün sahələrlə yanaşı, yerli özünüidarənin də inkişafına müsbət təsir edib. Yerli özünüidarəetmə orqanları tərəfindən qanunçuluğa ciddi əməl edilməsi qarşıda duran əsas vəzifələrdən biridir.

Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev seminar-müşavirədə çıxış edərək bildirib ki, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız qanunçuluğa əməl olunması baxımından həyata keçirilir. İnzibati nəzarət bələdiyyələrin yerli əhəmiyyətli məsələləri qanun çərçivəsində müstəqil və sərbəst surətdə həll etmək hüququnu məhdudlaşdırmır. İnzibati nəzarətin həyata keçirilməsini təmin etmək məqsədilə bələdiyyələr qəbul etdikləri aktların bir surətini həmin aktların qəbul edildiyi andan 15 gündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidirlər. Bunlara bələdiyyələrin normativ aktları, dövlət büdcəsindən ayrılan maliyyə vəsaitinin istifadəsi barədə aktlar, bələdiyyə mülkiyyətində olan əmlaka dair mülkiyyət hüququnun həyata keçirilməsi barədə aktlar, birdəfəlik yerli vergilərin və rüsumların tətbiqi barədə aktlar, yerli rəy sorğusunun nəticələrini əks etdirən qərarlar, bələdiyyələr üçün xərclər və maliyyə öhdəlikləri doğuran aktlar daxildir.

Qeyd edilib ki, Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəli nəticə verməsi istiqamətində işlər müntəzəm olaraq davam etdirilir. Son illərdə həyata keçirilən tədbirlər nəticəsində bütün bölgələrimiz kimi, Sədərək rayonunda da inzibati nəzarət qaydasında baxılan bələdiyyə aktlarının sayında artım müşahidə olunub, bu sahədə hüquq pozuntularının aradan qaldırılması diqqət mərkəzində saxlanılıb, bələdiyyələrə zəruri metodik köməklik göstərilib. Nazirlik tərəfindən bütün bələdiyyələrə kargüzarlıq işinin düzgün qurulmasına köməklik göstərilməsi məqsədilə vətəndaşların müraciətlərinə baxılması işinin, kargüzarlığın və mühasibat uçotunun təşkili ilə bağlı metodik vəsaitlər paylanılıb.

Ədliyyə naziri bildirib ki, "Kənd təsərrüfatı ili" ndə bələdiyyələrin də üzərinə mühüm vəzifələr düşür. İnanırıq ki, bu il rayon bələdiyyələri torpaqların icarəyə verilməsinə, icarə müqavilələrinin qanunamüvafiq qaydada bağlanmasına xüsusi diqqət yetirəcək, torpaq sahəsini icarə müqaviləsi və torpaq qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada icarəçiyə təhvil verəcək, qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələrin həyata keçirilməsində fəal olacaqlar.

Xəbərlər şöbəsi




**Azərbaycanda aviasiya sisteminin inkişafı XX əsrin əvvəllərinə təsadüf edir. 1938-ci il iyunun 2-də Azərbaycanda ilk aviasiya qrupu yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 may tarixli Sərəncamına əsasən həmin tarix hər il ölkəmizdə mülki aviasiya işçilərinin peşə bayramı günü kimi qeyd edilir.**

*2 iyun mülki aviasiya işçilərinin peşə bayramı günüdür*

# Naxçıvanın mülki aviasiya sistemi müasir inkişaf yolundadır

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli aviasiyanın inkişafı sahəsində böyük uğurlar qazanılmışdır. Ötən əsrin 70-ci illərində respublikanın 11 rayonunda yeni hava limanları tikilmişdir. 1976-1980-ci illər üçün Azərbaycanda mülki aviasiyanın inkişaf proqramı hazırlanmış, bölgələrdə reaktiv təyyarələrin qəbulu üçün qalxma-enmə zolağı salınmış, hava limanları müasir radio və işıq texnikası vasitəsi ilə təchiz edilmişdir. Mülki aviasiyanın ölkə həyatındakı rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik dövründə bu sahədə daha geniş tədbirlər görülmüşdür.

Azərbaycanın əsas ərazisindən təcrid olunmuş şəraitdə yaşayan Naxçıvanın nəqliyyat problemlərinin həllinə ümummilli liderimiz xüsusi diqqət yetirmiş, hələ 1976-cı ildə Naxçıvanda hava limanı tikilib istifadəyə verilmişdi. Ötən əsrin 90-cı illərində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, muxtar respublika Ermənistan tərəfindən blokadaya salınandan sonra sərnişin və yükdaşınması kiçiktutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilirdi. Bu dövrdən etibarən Azərbaycanın digər bölgələri ilə əlaqənin yeganə mümkün forması olan hava yolu yerli əhali üçün həyati əhəmiyyət daşımağa başladı. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan dahi şəxsiyyət limanın uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş yerli mütəxəssislər cəlb olunmaqla qısa müddət ərzində həyata keçirilmişdir. Sonrakı illərdə hava nəqliyyat növünə tələbatın artması Naxçıvanda daha müasir hava limanının tikilməsini zərurətə çevirmişdi. Bunu nəzərə alan ulu öndər hava limanının yenidən qurulması barədə qərar qəbul edərək 2002-ci il avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirmiş və həmin müşavirədə demişdir: ***“Naxçıvanda yaşayan insanların təyyarədən istifadəyə ehtiyacı bütün başqa yerlərdə yaşayan insanlara nisbətən çoxdur. Mən çoxdan bu fikirdə idim ki, Naxçıvan hava limanını yenidən quraq, yeni bir hava limanı tikək. Birincisi, gərək elə edək ki, təyyarələr buradan təkcə Bakıya, Gəncəyə yox, bir çox istiqamətlərə uçsun. İkincisi də, Naxçıvan öz coğrafi vəziyyətinə görə elə yer tutur ki, burada beynəlxalq standartlara uyğun hava limanının olması təkcə Naxçıvan üçün yox, bütün qonşu ölkələr üçün də çox əhəmiyyətli olacaqdır”.***

2002-ci ilin oktyabr ayının 1-də inşasına başlanan limanda tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, eləcə də muxtar respublikada aviasiya sahəsində kompleks tədbirlər həyata keçirilir. Ölkə başçısının müvafiq Sərəncamı ilə Azərbaycan Milli Aviasiyasının 2004-2010-cu illər üçün ikinci inkişaf proqramı qəbul olunmuş, paytaxt və regionlarda olan hava limanlarının maddi-texniki bazası möhkəmləndirilmiş, müasir xidmət infrastrukturu yaradılmışdır. Bu sahədə görülən işlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikasında da mülki aviasiya sisteminin müasirləşdirilməsi diqqət mərkəzində saxlanılmış, 2004-cü ilin aprel ayında hava limanına Beynəlxalq Hava Limanı statusu verilmişdir.

Son illər həyata keçirilən kompleks quruculuq tədbirləri Naxçıvan Beynəlxalq Hava Limanını müasir inkişaf mərhələsinə çıxarmışdır. Hava limanında aparılan yenidənqurma işləri layihəsinin birinci mərhələsi başa çatdırılmış, ötən il ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə hava limanının yeni inzibati binası istifadəyə verilmişdir. Ötən müddətdə hava limanının aerovağzal kompleksi yenidən qurulmuş, sərnişin və aviadaşımalarla bağlı xidmətin səviyyəsi daha da yüksəldilmiş, uçuşların təhlükəsizliyi təmin olunmuşdur. Terminal binasında 2 eskalator, 2 iritutumlu lift, binadan təyyarə dayanacağınadək 2 keçid körpü və 2 teleskopik trap quraşdırılmışdır. Burada xidmətin nümunəvi təşkili, qonaqların qarşılanıb yola salınması, aviasiya və gömrük xidmətinin təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Ümumiyyətlə, bu gün aerovağzal kompleksində beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklər tətbiq edilir. Aerovağzal kompleksinin yenidən qurulması işləri çərçivəsində həyata keçirilən bu geniş miqyaslı layihə illik sərnişindaşıma dövriyyəsinin artırılmasına da tam şərait yaradacaqdır.

Hazırda Naxçıvan Beynəlxalq Hava Limanından yerli hava xətləri üzrə Bakı şəhərinə hər gün 4 reys, həftənin 3 günü Türkiyə Respublikasının İstanbul şəhərinə və həftənin 1 günü Rusiya Federasiyasının Moskva şəhərinə müntəzəm olaraq uçuşlar həyata keçirilir. Uçuşlar “Aerobus”, “Boeing” tipli müasir təyyarələr vasitəsilə yerinə yetirilir.

Muxtar respublikada hava nəqliyyatı sisteminin inkişafına xüsusi diqqət göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muxtar respublikada hava nəqliyyatının inkişafı sahəsində həyata keçirilən tədbirlərin əsas məqsədi sərnişinlərin rahatlığını təmin etməkdir”.*** Naxçıvan Muxtar Respublikasında sərnişinlərə göstərilən hava nəqliyyatı xidmətinin nümunəvi təşkili təmin edilmişdir. Bu il Ordubad və Şərur şəhərlərində yeni aviakassa binalarının istifadəyə verilməsi bu tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Hər iki binada ən yeni texnoloji avadanlıqlar quraşdırılmış, qabaqcıl idarəetmə sistemi yaradılmış, sakinlərin rahatlığı təmin edilmişdir.

Müasir infrastrukturun yaradılması və xidmət sahələrinin genişləndirilməsi ixtisaslı kadrlara və mütəxəssislərə olan tələbatı da artırır. Buna görə də Naxçıvan Beynəlxalq Hava Limanında gənc və peşəkar kadr təminatı yaradılır. Əməkdaşların Milli Aviasiya Akademiyasının Aviasiya personalının hazırlığı mərkəzində həm ilkin, həm də ixtisasartırma kurslarına göndərilməsi prosesi davam etdirilir. Həmçinin hava limanında əməkdaşlar üçün təşkil edilən xarici dil kursları da bu qəbildən olan proqramın tərkib hissəsidir.

*Bu gün Naxçıvan Beynəlxalq Hava Limanı beynəlxalq təcrübəyə əsaslanaraq aviasiya sahəsində dünyada baş verən bütün proseslərə qoşulmuş, əhaliyə göstərilən xidmətin səviyyəsi xeyli yüksəldilmişdir. Muxtar respublikada aviasiya təhlükəsizliyinin və sərnişinlərin rahatlığının təmin olunması sahəsində görülən işlər bundan sonra da diqqət mərkəzində saxlanılacaqdır.*

***Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti***

# Ötən həftə keçirilən iməciliklər də öz mütəşəkkilliyi ilə yadda qalıb



***Son 20 ildə muxtar respublikamızda yaşıllıq sahələrinin həcminin bir neçə dəfə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi muxtar respublikanın hər bir guşəsində keçirilən və naxçıvanlıların vətəndaşlıq borcuna çevrilən iməciliklər nəticəsində mümkün olmuşdur. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyəti getdikcə yüksəlir. Son illər iməciliklər yolu ilə xeyli meyvə bağları, yaşıllıq zolaqları salınmışdır.***

Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilməkdədir.

Mayın 30-da muxtar respublikanın şəhər və rayonlarında keçirilən iməciliklərdə, ümumilikdə, 24 min 510 nəfər iştirak etmişdir.

Həmin gün Naxçıvan şəhərinin sakinləri Babək rayonunun Şıxmahmud kəndi yaxınlığındakı yaşıllıq sahəsinə, müəssisə və təşkilatların ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Şərurlular Dəmirçi və Maxta kəndləri ərazilərindəki, babəklilər rayon Mədəniyyət Evinin ətrafındakı, müəssisə və təşkilatların ərazilərindəki, ordubadlılar Naxçıvan-Ordubad magistral yolunun Aşağı Əylis kəndi ərazisindəki və rayon Mərkəzi Xəstəxanasının həyətindəki yaşıllıqlarda çalışmış, culfalılar Naxçıvan-Ordubad magistral yolunun kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərmiş və Bayraq Meydanının ərazisində 17 həmişəyaşıl ağac əkmişlər.

Kəngərli sakinləri Naxçıvan-Sədərək magistral yolunun Böyükdüz kəndi ərazisində 600 ədəd meyvə ağacı, şahbuzlular Naxçıvan-Batabat magistral yolunun Sələsüz kəndi ərazisində 100 ədəd həmişəyaşıl ağac, Şahbuz şəhərində yeni tikilən uşaq bağçasının həyətinə və şəhərdəki yaşıllıqlara 470 ədəd gül kolu əkmişlər.

Sədərək rayonunun sakinləri Qaraağac kəndinin ərazisindəki və Sədərək kənd 2 nömrəli tam orta məktəbin həyətindəki yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, Heydərabad qəsəbəsindəki park və xiyabanlarda 5 min ədəd gül kolu əkmişlər. Ümumilikdə, iməcilik günü 6 min 187 ədəd ağac, gül və bəzək kolları əkilmişdir.

Həmin gün muxtar respublikanın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik və abadlıq işləri aparılmışdır.

***Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın qəbul edilməsi həmin tədbirlərə stimul olub.***

# Yarmarkadakı bolluq “Kənd təsərrüfatı ili”nin uğurla başa çatacağından xəbər verir

Proqramın uğurlu icrası daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına, eləcə də istehsal olunan məhsulların satışına hərtərəfli şərait yaradıb. Son illər kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarının keçirilməsi də bu məqsədə xidmət edir.

Mayın 30-da Naxçıvan şəhərindəki Mərkəzi bazarda kənd təsərrüfatı məhsullarının satış yarmarkasının növbəti mövsümünə start verilib. Yarmarkaya muxtar respublikanın ayrı-ayrı rayonlarından gətirilmiş müxtəlif çeşiddə kənd təsərrüfatı məhsulları çıxarılmışdı. Öyrəndik ki, 115 yerlik bazara muxtar respublikanın bütün rayonlarından gəlmiş 250 torpaq mülkiyyətçisinin məhsulları yerləşdirilib. Yarmarkada yerli kartof, pomidor, xiyar, göyərti, göyçə, gilas, çiyələk kimi kənd təsərrüfatı məhsulları çoxluq təşkil edirdi. Məhsulunu satmaq üçün yarmarkaya gəlmiş Vidadi Həsənov Şərur rayonunun Ələkli kəndindəndir. Bu il təsərrüfatında kartof becərilməsinə daha çox üstünlük verib. Çəkdiyi zəhmət hədər getməyib. Sahəsində bol məhsul yetişdirə bilib. Tural İsmayılov isə Şərur rayonunun Çəmənli kəndindəndir. Yarmarkaya göyçə gətirib. Həmsöhbətim bildirdi ki, indi göyçənin tam zamanıdır. Biz də bağımızdan əldə etdiyimiz göyçəni satmaq üçün yarmarkaya gətirmişik. Ötən iki saat müddətində, demək olar ki, gətirdiyim məhsulun böyük bir qismini sata bilmişəm. Bu şəraiti yaradanlara öz minnətdarlığımı bildirirəm.



Digər müsahibimiz İbrahim Abbasov Ordubad rayonunun Dəstə kəndindən gəlmişdi. Yarmarkaya göyərti və tərəvəz gətirmişdi. Bildirdi ki, çoxdandır, bu işlə məşğulam. Hər il məhsullarımızı satmaq üçün Naxçıvan şəhərində təşkil olunan yarmarkalara gətiririk. Dövlətimizə minnətdarıq ki, burada satış üçün bizə hərtərəfli şərait yaradılıb.

Şahbuz rayonunun Sələsüz kəndindən heyvandarlıq məhsulları gətirmiş Əlizadə Ələkbərov da yarmarkadan razılıq etdi. Təsərrüfatında istehsal etdiyi süd, pendir, yağ, şor məhsullarını burada rahatlıqla satdığını dedi.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı məhsullarının satış yarmarkası şəhər sakinlərinin də ürəyincə olub. Məsmə Quliyeva rayonlardan gətirilmiş yerli məhsulların keyfiyyətindən ağızdolusu danışdı. Bildirdi ki, Naxçıvanın meyvə-tərəvəzlərinin dadını heç bir regionun məhsulunun dadına dəyişməz.

Digər şəhər sakini İbrahim Məmmədov da yarmarkadan razı qaldığını dedi. Müsahibimiz zənbilini yerli kartof, göyərti və göyçə ilə doldurmuşdu. Qiymətlərin münasib olduğunu söyləməklə yanaşı, belə kənd təsərrüfatı yarmarkalarını təşkil edənlərə minnətdarlıq etdi.

Bir sözlə, “Kənd təsərrüfatı ili”nin ilk yarmarkası satıcının da, alıcının da ürəyincə idi. Hər kəs bazarda yerli məhsulların sayının və həcminin artmasına çox sevinirdi. Yarmarkadakı kənd təsərrüfatı məhsullarının bolluğu, qiymətlərin münasib olması belə deməyə əsas verir ki, bu il də təsərrüfatçılar üçün uğurlu illərdən biri olacaqdır.

Qeyd edək ki, həmin gün yarmarkaya muxtar respublikanın 12 yerli sənaye müəssisəsi də öz məhsullarını çıxarmışdı. Kənd təsərrüfatı məhsulları yarmarkası bazar günü də davam etdirilib.

**S.HƏSƏNOV**

# 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü qeyd olunub

*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə teatrın foyesində uşaqların əl işlərindən, rəsm əsərlərindən və uşaqlar üçün muxtar respublikada nəşr olunmuş kitablardan ibarət sərgiyə baxılıb.*





Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək Naxçıvan Muxtar Respublikasında uşaqların hüquq və sağlamlıqlarının qorunması, onların təhsili, təlim-tərbiyəsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd olunub ki, hazırda muxtar respublika əhalisinin 35,8 faizini, yəni 157 min 581 nəfərini uşaqlar təşkil edir. Bunlardan 1972 nəfəri sağlamlıq imkanları məhdud, 98-i valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, 181-i övladlığa götürülmüş, 12-si xüsusi istedada malik, 64-ü ölkədaxili və ölkədənkənar yarışların qalib və mükafatçısı olan 18 yaşınadək uşaqlardır.

Bildirilib ki, uşaqların yüksək səviyyədə təhsil almaları, müxtəlif sənət və peşələrə yiyələnmələri, istedad və bacarıqlarının üzə çıxarılması üçün 1995-2015-ci illərdə 200-dən artıq ümumtəhsil məktəbi, onlarla uşaq musiqi məktəbi və məktəbəqədər təhsil müəssisələri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, onların maddi-texniki bazası gücləndirilib, məktəblər ən müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunub. Bu gün muxtar respublikanın ümumtəhsil məktəblərində quraşdırılan elektron lövhələrin sayı 600-ü ötüb, hər 12 şagird bir dəst kompüterlə təmin edilib. İstifadədə olan kompüterlərin 84 faizi internetə qoşulub. Uşaqların peşə məktəblərinə cəlbi, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının düzgün təşkili də diqqət mərkəzindədir. Muxtar respublikada fəaliyyət göstərən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Uşaq Filarmoniyası kimi mədəniyyət ocaqları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzi, şahmat məktəbləri və onlarla digər məktəbdənkənar tərbiyə müəssisələri bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq, "Gənc istedadların "Qızıl kitabı"nın yaradılması, 4 nəfər istedadlı uşağın adının bu kitaba salınması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq, uşaq müəssisələrində uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının aradan qaldırılması məqsədilə ardıcıl tədbirlər görülüb, muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının yaradılması başa çatdırılmaqdadır.

Bu gün muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsilinin səmərəli təşkili istiqamətində də ardıcıl tədbirlər görülür. Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu mənada mühüm əhəmiyyətə malikdir. Bu günə qədər təkcə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 1728 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılıb. Bu uşaqlardan 22 nəfər uşaq bağçalarına, 10 nəfər Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 66 nəfər ümumtəhsil məktəblərinə, 15 nəfər idman və şahmat məktəblərinə, 17 nəfər uşaq musiqi məktəblərinə, 11 nəfər məktəbdənkənar müəssisələrin dərnəklərinə, 13 nəfər Naxçıvan Uşaq Bərpa Mərkəzinə və 18 nəfər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə, 1 nəfər Naxçıvan Regional Peşə Tədris Mərkəzinə olmaqla, cəmi 173 nəfər məktəbəqədər, məktəb və məktəbdənkənar təlim-tərbiyə, müalicə və reabilitasiya müəssisələrinə yönləndirilib. Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müəllim, metodist və tərbiyəçilərin iştirakı ilə 5 dəfə kurs təşkil edilib, bu qəbildən olan uşaqlar üçün qanvermə aksiyaları keçirilib. Dövlət proqramına uyğun olaraq, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilib. Mərkəzdə server və çevirici avadanlıqlar quraşdırılıb, tədris sinfinə intellektual-elektron lövhə, kompüter, smart kamera, monitor və digər avadanlıqlar qoyulub.

Qeyd olunub ki, hazırda muxtar respublika üzrə sağlamlıq imkanları məhdud olan onlarla uşaq distant təhsilə cəlb edilib, onların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, notbuk və veb-kameralar quraşdırılıb.

Tədbirin bədii hissəsində Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin şagirdləri Azərbaycana, Naxçıvana və ulu öndərə həsr olunmuş şeirləri bədii qiraət ediblər. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin balaca fidanlarının, Naxçıvan Dövlət Uşaq Filarmoniyası, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi və uşaq musiqi məktəblərinin mahnı və rəqs qruplarının çıxışları alqışlarla qarşılanıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov iştirak edib.

**Sara ƏZİMOVA**

***Azərbaycanın milli hərb sənəti tarixinə qızıl səhifələr yazan görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin bu il anadan olmasının 120 illiyi tamam olur.***

## Cəmşid Naxçıvanski – 120

# Sərkərdə

Azərbaycan Respublikası Prezidentinin "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 2 aprel tarixli Sərəncamında deyilir: "Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir". Bu sərəncamdan sonra, aprel ayının 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Sərəncam imzalamışdır.

Unudulmaz sərkərdə Cəmşid Naxçıvanski yunkerlikdən sərkərdəyədək yüksəlmişdir. Arxiv sənədlərindən, müasirlərinin xatirələrindən məlum olur ki, o, zəngin və maraqlı həyat yolu keçmişdir. Xan əsilli sərkərdə ulu babalarının və atasının döyüş yolunu zəfərlərlə, özünəməxsus istedad və bacarıqla davam etdirmişdir. Axtarışlar zamanı məlum oldu ki, onun haqqında Azərbaycanda, o cümlədən keçmiş Sovet İttifaqında, əsasən, 1971-ci ildən sonra məqalələr yazılmışdır.

1969-cu ilin 14 iyulunda Azərbaycanın rəhbəri seçilən ulu öndər Heydər Əliyevin Cəmşid Naxçıvanskinin adının unudulmaması üçün atdığı qəti, ciddi addımlar nəticəsində qəhrəman sərkərdə haqqında elmi və elmi-publisistik məqalələr işıq üzü görməyə başladı.

Cəmşid Naxçıvanskiyə aid ilk qəzet yazısı unudulmaz tariximiz Əli Əliyevə məxsusdur. Əli müəllimin böyük təəssübkeşliklə yazdığı yazı 7 yanvar 1971-ci ildə "Azərbaycan gəncləri" qəzetində oxuculara təqdim olundu. Məqalə böyük maraqla qarşılandı. Bundan sonra qəzetlərin əksəriyyətində Azərbaycan və rus dillərində Cəmşid Naxçıvanskinin hərbi fəaliyyətinə aid məqalələr ara-sıra nəşr olundu. Həmin yazıların əksəriyyətini – kitabxana fondlarında olanları bu günlərdə bir daha oxudum. Doğrudanmı, Cəmşid Naxçıvanskinin həyatı və döyüş yolu belə rahat və hamar olub?



Həmin illərdə arxivlər bağlı olduğundan müəlliflər ancaq sovet senzurasının icazə verdiyi hissələri çap edə bilərdilər. Belə bir qayda isə yazılan məqalələri "xüsusi qəlibə" salırdı. Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra hərbi jurnalistlər və tarixçilər Cəmşid Naxçıvanski haqqında da kitablar yazdılar. Bunlardan mükəmməli Rusiya tarixçisi Rudolf İvanovun yazdığı 832 səhifəlik kitabdır: "Sovet İttifaqı adından" ("İmena Soyuza Sovetskix") (Moskva, 2007)...

Bütün bunlara baxmayaraq, bu gün internet saytlarında bəzi tədqiqatçılar Cəmşid Naxçıvanskinin guya Tiflisdə doğulması haqqında və sair səhv faktlar yayırlar. Çox təəssüf ki, bunu azərbaycanlı tədqiqatçılar edirlər. Bizcə, bu, yolverilməzdir. Çünki Rusiya Dövlət Hərbi-Tarix Arxivində Cəmşid Naxçıvanskiyə aid sənədlər 400, 407, 24696, 37837-ci və digər fondlarda saxlanılır. Məsələn, 35866-cı fonddakı tatar (azərbaycanlı – müəllif) süvari polkunun ehtiyat yüzlüyünün praporşiki Cəmşid xan Naxçıvanskiyə məxsus xidmət kitabçası 1915-ci ilin aprelində tərtib olunub.

Ona görə də qəhrəman sərkərdəmiz haqqında yalnız həqiqət yazılmalı, belə olmayacaqsa, ümumiyyətlə, onun barəsində yazı qələmə alınmamalıdır. Məqamındaca deyək ki, görkəmli sərkərdə haqqında əhatəli monoqrafiyanın yazılmasına böyük ehtiyac vardır.

Cəmşid Naxçıvanskinin Rusiya Dövlət Hərbi-Tarix Arxivində saxlanılan xidmət kitabçasından (1915) məlum olur ki, o, 9 avqust 1885-ci ildə Naxçıvanda ştabs-rotmistr Cəfərqulu xan Kəngərli-Naxçıvanskinin ailəsində doğulmuşdur. Amma nədənsə Azərbaycanda nəşr olunan ensiklopediya və kitablarda doğum günü kimi 10 avqust qeyd edilib. Ailənin ikinci övladı olan Cəmşid xanın bir bacısı və 4 qardaşı olmuşdur: III Kalbalı xan (20.10.1891 – təxminən 1934), Cəmşid xan (09.08.1895-26.08.1938), Nazlıbəyim (?-?), Teymur xan (?-1916), III Ehsan xan (01.04.1894-1920), Davud xan (?-?).

Cəmşid xan ilk təhsilini evdə xüsusi müəllimlərdən almış, ana dilində yazmağı, həmçinin rus və fransız dillərini öyrənmişdir. Sonralar İrəvanda pansionda oxumuşdur. Onun Tiflis kadet korpusunda oxumağa getdiyi vaxtı da müxtəlif illərə aid edirlər. Məsələn, 1976-cı ildə Bakıda nəşr olunmuş "Atalarım döyüş yolu" adlı kitabda (müəllif Firdovsi Zamanov) onun səkkiz yaşında, yəni 1903-cü ildə yunker məktəbinə oxumağa getməsi qeyd edilmişdir. Amma aparılan axtarışlar göstərir ki, Cəmşid xan 1914-cü ilin martında Tiflis kadet məktəbində 7 illik təhsilini başa vurmuşdur. Bu tarix ona verilən şəhadətnamədə də qeyd edilmişdir: 30 apreldən 14 iyunadək kadet məktəbində imtahan vermişdir. Deməli, onun kadet məktəbinə daxil olduğu il 1907-ci ildir. Çünki Tiflis hərbi məktəbinin 1-ci sinfinə 10-12, 2-ci sinfinə isə 11-13 yaşlarında müdavimlər qəbul edilirdi. Bu yaş dövrləri ona görə seçilirdi ki, yunker məktəbinə gələnlərin müəyyən fənlər üzrə biliyi olsun. Yəqin ki, tapılacaq ilkin sənədlərdə onun Tiflis kadet məktəbinə daxil olduğu il də dəqiq qeyd edilmişdir. Araşdırmalarımıza görə, Cəmşid xan 12 yaşında yunker məktəbinin 2-ci sinfinə qəbul edilmişdir. O, kadet məktəbində imtahanları müvəffəqiyyətlə vermiş, 3 aylıq hərbi xidmətdən sonra, 8 noyabr 1914-cü ildə ilk hərbi dərəcəni, yunker-unter rütbəsini almışdır. Tiflis kadet məktəbini bitirəndə Cəmşid xanın 19 yaşı var idi. Çar Rusiyasında olan qaydaya görə, 21 yaşına çatmamış oğlanların hərbi məktəblərdə oxumalarına hökmən valideynləri icazə verməliydilər.

Onun atası Cəfərqulu xan 23 iyul 1914-cü ildə razılıq ərizəsi yazır. Cəmşid xan həmin ildə Qərbi Ukraynanın Yelizavetqrad şəhərindəki qvardiya məktəbinə daxil olmuşdur. Onun qvardiya məktəbinə daxil olduğu tarix 30 avqust 1914-cü ildir.

Birinci Dünya müharibəsinin başlanması vəziyyəti dəyişir. O, 6 sentyabr 1914-cü ildə Rusiya ordusunda xidmət etmək üçün Yelizavetqradda hərbi and içir. Cəmşid xanın hərbi xidmətə başlamasının tarixi sənədlərdə 1 sentyabr 1914-cü il göstərilir. Onu Rusiya imperiyasının müsəlmanlardan təşkil olunmuş Qafqaz yerli süvari diviziyasının tatar (azərbaycanlı) alayındakı ehtiyat yüzlüyə hərbi xidmətə göndərirlər. Cəmşid xan 1 dekabr 1914-cü ildə həmin ehtiyat yüzlükdə hərbi xidmətə başlayır. Qeyd edək ki, elə həmin tarixdə də ona gənc zabit rütbəsi – praporşik verilmişdir.

Onun haqqında olan bu məlumatlar 1915-ci il aprelin 15-də yazılan xidmət kitabçasında qeyd olunub. Həmin xidmət kitabçasını diviziya komandiri böyük knyaz Mixail Aleksandroviç Romanov və diviziyanın qərargah rəisi, polkovnik Yuzefoviç imzalamışlar. Hər halda buradakı məlumatların dəqiqliyinə inanmaq olar.

Həmin xidmət kitabçasından məlum olur ki, Cəmşid xan mart ayının 5-dən hərbi kampaniyada iştirak edir.

Cəmşid xanın tatar süvari alayında ehtiyat yüzlükdə xidmətə başlaması haqda əmr 4 mart 1915-ci ildə Buqaç şəhərində imzalanıb. Tatar süvari alayının birinci yüzlüyündə müharibə cəbhəsində hərbi xidmətə başlayan Cəmşid xan ilk hərbi tapşırığını alır: poliqonda atəş vaxtı rəhbərlik gənc zabitə tapşırılır. 7 mart 1915-ci il tarixi onun üçün, bir növ, sınaq tarixi olur. Gənc zabit ilk gündən arzulayır ki, olduqca qədim tarixi olan Naxçıvanın Kəngərli süvariləri kimi igidlik göstərsin. Necə ki ulu babaları Naxçıvan tarixinə adlarını qızıl hərflərlə yazmışlar, o da buna çalışmışdır.

19 mart 1915-ci ildə Cəmşid xan müvəqqəti olaraq alay komandirinin yavəri – adyutantı təyin edilir. Tatar alayı Çervonoqrad kəndində yerləşdiyi vaxt o, müvəqqəti yavərlik vəzifəsini təhvil verir.

Gənc zabit Cəmşid xan müharibədə göstərdiyi hünərə və şücaətə görə 22 iyul 1915-ci ildə 4-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə (üzərində "igidliyə görə" yazılmış) təltif olunsa da, bu mükafatı ona 14 fevral 1916-cı ildə təqdim ediblər.

Avqust ayının 25-də Cəmşid xan Novoselka kəndinin yaxınlığında gedən qızğın döyüşlərdə yaralanır. 31 avqust 1915-ci ildə olan əmrdən (əmr № 243) məlum olur ki, Cəmşid xan müalicə olunmaq üçün hərbi hospitala göndərilmişdir. Alay komandiri polkovnik Polovtsev Cəmşid xanı "Müqəddəs Georgi Silahı" mükafatına təqdim etsə də, cənub-qərbi cəbhənin Duması bunun gənc zabitə hələ tez olduğunu bildirir. Cəmşid xana 19 sentyabr 1915-ci ildə kornet hərbi rütbəsi verilmişdir.

*(Ardı var)*

**Musa QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

# Naxçıvanlı dahilər və mətbuat

***Mətbuat dövrün ensiklopediyasıdır. Gələcəkdə Naxçıvan Muxtar Respublikasının bugünkü inkişafı və sosial-iqtisadi həyatı ilə maraqlanmaq istəyənlər, ilk növbədə, arxivlərdə, kitabxanalarda saxlanılan, yerli həyatın salnaməsi olan qəzetlərin səhifələrini vərəqləyəcəklər; necə ki indi biz vərəqləyirik. Naxçıvan mühitində qələminin gücü ilə xalqına xidmət edən dahilərin yazıb-yaratdıqları nümunələr keçmişimizdən xəbər verib, gələcəyimizə güzgü tutub. Müxtəlif janrlarda yaradılan həmin qiymətli nümunələr mətbuatımızın bugünkü inkişafının nələr bahasına qazanıldığını göstərir.***

XIX əsrdə Naxçıvanda genişlənən maarifçilik əlaqələrinin daha da inkişafı məhz o dövrün mətbu orqanları ilə bağlıdır. Müxtəlif ölkələrin mətbuat orqanları ilə tanış olan ziyalılarımız həm də bu orqanlarda geniş yaradıcılıq imkanlarını sərgiləyirdilər. Məhəmməd Tağı Sidqi, Məhəmmədağa Şahtaxtlı, Eynəlibəy Sultanov, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Hüseyn Cavid belələrindən idi.

XX əsrdə Azərbaycan dilində çıxan ilk qəzet Məhəmmədağa Şahtaxtlının 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri var idi. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi.

### *Məhəmməd Tağı Sidqi: əməkdaşlıq, mətbuata münasibət*

Sidqi publisistika sahəsində genişmiqyaslı fəaliyyət göstərmiş, "Tərcüman", "Əxtər", "Həblülmətin", "Kaspi", "Nasiri" kimi qəzetlərlə yaxından əməkdaşlıq etmiş, onun bu qəzetlərdə maraqlı məqalələri dərc olunmuşdur. Hətta o, ana dilində "Çıraq" adlı qəzet çıxarmaq üçün təşəbbüs göstərmişdir.

Sidqinin "Qəzet, yaxud qəzetə nədir?" adlı məqaləsində qəzet oxumaq, qəzetə o dövrdə münasibət kimi məsələlərə diqqət çəkilib. Qəzetin faydalarından, qəzet oxumağın vacibliyindən bəhs edilən bu məqalədə qəzetə və mətbuata fərqli baxışlarla yanaşı, obyektiv yanaşmalar da qələmə alınmışdır. Sənətkarın həm ironik, həm də realist fikir oyunlarının bir-birini əvəz etməsi şəklində yazılan məqaləsində qəzet oxumağa qarşı olan insanlar tənqid olunur. Dünya ölkələrindən gətirilən bir sıra nümunələrlə qəzet oxumağın faydaları və qəzetin cəmiyyətin dünyagörüşündə, təfəkküründə oynadığı əhəmiyyətli roldan bəhs olunur: *"Qəzetənin mühəssənatı və əhəmiyyəti çox-çoxdur. Onun tərif və tövsifi, izzət və ehtiramı, məziyyət və lüzumu bundan ziyadədir ki, əsrimizdə hər məmləkətin müəzzilat ümurunun nəticəsi və hər millətin nətayici-əfkarının səmərəsi və hər dövlətin politikasının təğyirat və təbdilatı küllən qəzetə ilədir. Qəzetəni alıb oxumaqdan ar etməyəlim".*

Dünyanın inkişaf etmiş mədəniyyət mərkəzlərinin tərəqqisində mətbuatın rolunu vurğulayan Sidqi öz ölkəsində də mətbuata qarşı bu cür sevgi və hörmət görmək arzusu ilə çırpınır. Məqaləsini "Qəzet oxuyalım! Qəzet oxuyalım!" nidası ilə bitirən Sidqi xalqın tərəqqisini elm öyrənməkdə, mütaliə etməkdə görürdü.

### *Eynəlibəy Sultanov və qəzetçilik*

Eynəlibəy Sultanov "Tərcüman", "Həyat", "İrşad", "İqbal", "Molla Nəsrəddin", "Yeni fikir", "Dan ulduzu", "Şərqi-rus", "Yeni yol", "Qızıl şəfəq", "Qığılcım", "Kəndli", "Gələcək" kimi qəzet, jurnal və məcmuələrdə mütəmadi olaraq bədii, publisist, tənqidi yazıları ilə çıxış etmişdir. E.Sultanovun həyat və fəaliyyətinin tədqiqatçısı Elxan Məmmədovun təqdim etdiyi E.Sultanovun "Publisist dostuma" məqaləsində maarifçi ziyalının qəzetçiliklə, publisistika ilə bağlı maraqlı fikirlərinə rast gəlirik:

*"Sən publisist fəaliyyətini intixab etdin...*

*Əlbəttə, sənin məqsədin maddi qazanc əldə etməkdən ibarət deyildir; çünki belə olduqda bu fəaliyyətin özü naşükürlük olar!*

*Lakin sən əxlaqi, mənəvi və əqli cəhətdən publisist fəaliyyətinə kifayət qədər hazırlaşmısanmı?*

*"Başqalarını öyrətmək üçün dühа lazımdır, güclü qəlb lazımdır!"*

*Sən öz xalqının mənəvi həyatını kifayət qədər öyrənmisənmi? Zamanın tələbatından xəbərdarsanmı?*

*Gözlə ki, səhv edib çörək əvəzinə özünü daş üstünə yıxmayasan...*

*Publisistin vəzifələri müqəddəsdir, bu vəzifələri namusla yerinə yetirmək isə ikiqat artıq zəruridir!*

*Şərəfini tapdalama, qardaş!*

*Başqalarını öyrət, özün də öyrənməkdə davam et!*

*Xeyirxahlıq ideyalarını cəsarətlə və açıq-dan-açığa ifadə et!*

*Bu aləmdə güclü qarşısında qorxub titrəmə, sənin arxanda duran həqiqət ondan da güclüdür.*

*Qeyri-bərabər mübarizədə məğlub olmaqdan qorxma. Qorxu hissini boğmağı bacarmasan, yaxşısı budur ki, bu nəcib fəaliyyətindən əl çək! Yoxsa tərəqqi işinə ziyan yetirmiş olarsan".*

***E.Sultanov***
***"Zaqafqaziye" qəzeti, № 170, səh.2, 23 avqust 6 sentyabr 1907-ci il***

### *Cəlil Məmmədquluzadə və Məmməd Səid Ordubadinin qəzet haqqında fikirləri*

Artıq "Şərqi-rus" qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 20-də Tiflisdə illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı – "Molla Nəsrəddin" işıq üzü görmüşdür. "Molla Nəsrəddin" jurnalı 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr edilmişdir. Jurnalın bu müddət ərzində 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çap olunmuşdur. Mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı güclü satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Cəlil Məmmədquluzadə Azərbaycan mətbuatı tarixinə Azərbaycan satirik publisistikasının yaradıcısı kimi daxil olmuşdur. Böyük ədibin "Molla Nəsrəddin" jurnalının birinci sayında çıxmış "Sizi deyib gəlmişəm" məqaləsi təkcə mollanəsrəddinçi publisistikanın deyil, bütövlükdə, milli satirik publisistikanın mayakıdır. Cəlil Məmmədquluzadənin bədii yaradıcılığı kimi, mətbu fəaliyyəti və publisistikası da Azərbaycançılıq ideyaları təməlində inkişaf etmişdir. Onun "Azərbaycan" məqaləsi bu baxımdan çox əhəmiyyətlidir.

Cəlil Məmmədquluzadə "Mətbuat bayramı, yaxud tacgüzarlıq", "Qəzetlərdən" "İrşad", "Tərcüman", "Müxbirlər" kimi məqalə və felyetonlarında qəzetin, qəzetçiliyin əhəmiyyətindən danışmış, xalqın maariflənməsi ilə yanaşı, informasiyanın insanlara ümumi şəkildə tez bir zamanda çatdırılması məsələlərinə də toxunmuşdur.

"Müxbirlər"də Mirzə Cəlil xalqı yalan, yanlış fikirlərlə zəhərləyən müxbirləri ittiham etmişdir. Onun "İrşad" qəzeti haqqında yazılmış: *"Sən də gedib Frəngistanı gəzib gəlib deyirsən ki, "pəh, niyə Şvetsariya Zəngəzur mahalı böyüklüyündə ola-ola oranın qəzetlərinin iki milyon müştərisi ola, "İrşad"ın beş min də olmasın? Niyə Rusetdə "Novoye vremya"nın üç milyon müştərisi, "Mşak"ın əlli beş min müştərisi olsun, "İrşad"ın beş min də olmasın?*

*Həyə, sən də belə fikir eləyirsən, heyif olsun sənin elminə ki, Frəngistanın xarabasında təhsil eyləyibsən!"* kimi fikirlər o dövrün insanlarının qəzet haqqında düşüncələrini, onların psixologiyasını, qəzetə hansı səpkidən yanaşmalarını anlamaq baxımından bizə kömək edir.

Ədib bu yazısında Azərbaycanda qəzetlərə olan marağın az olmasını tənqid edir, şikayətlərini satirik bir dillə bildirir. O, qəzet oxuyan xalqı kinayə ilə "bikar" adlandırır, bununla demək istəyir ki, o bikarlar qəzet və mətbuat sayəsində günü-gündən inkişaf edərkən, siz bikar olmayanlar nə etmisiniz?..

Onun mütaliə etməyən, oxumaq yerinə dini xurafatı seçib milləti zəhərləyən şəxslərə ünvanlanan bu cür yazıları həmişə öz aktuallığı ilə diqqət çəkib.

C.Məmmədquluzadə hələ inqilabdan əvvəl ədəbi-bədii dilin, mətbuat dilinin təmizliyi və inkişafı, bədii dil ilə xalq dili arasındakı səddin məhv edilməsi, xalq dili söz və ifadələrinin bədii dildə üstün və aparıcı mövqeyi, dilin sadəliyi, təbiiliyi və təmizliyi uğrunda görkəmli bir jurnalist və yazıçı kimi yorulmadan mübarizə aparmışdır. Böyük ədib 20-dən artıq felyetonunda ya bilavasitə, ya da dolayı yolla dilin saflığı, əlifba və orfoqrafiya, ədəbi-bədii dil və mətbuat dili kimi mühüm məsələlərə toxunmuşdur.

Məmməd Səid Ordubadinin yaradıcılığında isə bədii publisistikanın felyeton janrında yazılan əsərlər daha mühüm yer tutur. Ədibin "Molla Nəsrəddin" jurnalında dərc olunan felyetonlarında bir sıra mühüm ictimai problemlərə toxunulmuş, fanatizm, gerilik və nadanlıq, zülm və ədalətsizlik, imperiya siyasəti tənqid olunmuşdur. M.S.Ordubadi "Molla Nəsrəddin" jurnalının Bakı dövründə redaktor müavini vəzifəsində çalışmışdır. M.S.Ordubadi mətbuat sahəsində göstərdiyi səmərəli fəaliyyətinə görə "Kommunist" və "Yeni yol" qəzetlərinin baş redaktoru olmuşdur. Azərbaycanda latın əlifbası ilə nəşr edilən ilk qəzet olan "Yeni yol" M.S.Ordubadinin redaktorluğu ilə latın əlifbasının təbliği və yayılmasında mühüm rol oynamışdır. "Yeni yol" qəzeti necə böyüdü" adlı məqaləsində ədib bunu belə izah edirdi: "Bir çox çətinliklərdən sonra Azərbaycan işçi və kəndliləri arasında yayılaraq inkişafa davam etdi". O həmçinin bu məqalədə qəzet haqqında əhəmiyyətli fikirlər söyləmişdir. Yazıçının məqalələri "Əxbər", "Kommunist", "Maarif işçisi", "Füqəra füyuzatı", "Azərbaycan xəbərləri", "Qızıl qələm", "Şərq qadını", "Yeni fikir", "Yeni yol" və başqa qəzet-jurnallarda dərc olunmuşdur.

### *Hüseyn Cavid: əməkdaşlıq, oxucu mövqeyi*

Mütəfəkkir şair, görkəmli dramaturq Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yaradıcılıq istedadına malik ədəbi simalardan biridir. Hüseyn Cavid yaradıcılığa, əsasən, şeir və publisistik məqalələri ilə başlayıb, sonralar "Füyuzat", "İrşad", "Açıq söz", "İqbal", "Həqiqət", "Gənc işçi", "Ədəbiyyat", "Maarif və mədəniyyət", "Qızıl şəfəq", "Yeni yol" kimi mətbuat orqanlarında müxtəlif mövzuda və müxtəlif janrda məqalələrlə çıxış etmişdir. H.Cavidin publisistikasına məqalələrindən əlavə, onun məktubları da daxildir. Qurbanəli Şərifzadəyə, Məmmədəli Sidqiyə və Əziz Şərifə yazdığı məktubları onun yaradıcılığında önəmli yer tutur.

Onun Sidqiyə yazdığı məktubdan aydın olur ki, naxçıvanlı ziyalılar qəzet və qəzetçiliyə böyük hörmət bəsləmişlər. Q.Şərifzadəyə digər məktubunda Hüseyn Cavid yazırdı: *"İstanbulda çox böyük qiraətxanə və kütübxanalar var, amma layiqlərincə kitabları və qəzetələri yoqdur, çünki hər bir eyi münəqqid və mətbuat yasaqdır. Böylə anlaşılır ki, dörtbeş sənə bundan əqdəm Türkiyədə hürr əsərlər var imiş və camaata da belə dəhşətli surətdə sıqı tutulmazmış, ələlxüsus Kütübxaneyi-Ümumiyi- Osmaninin bir tərəfində yedi-səkiz sandığa kibi kitab vardır ki, beş sənə bundan əqdəm yasaq və məmnu deyilmiş, amma şimdi yasaq olmuş"* ...Bu fikirlərlə Cavid dünya ölkələrinin qəzetə müxtəlif mövqelərini nümayiş etdirirdi. Yaxud Cavidin "Bizdə çıxan jurnaldan və bəzi qəzetə nömrələrindən birər nömrə göndərsən, fəna olmaz" deməsi onun qəzetə verdiyi yüksək qiymətin ifadəsidir.

Dahilərin başladığı yolun davamçısı kimi, dahilərin arzusu, istəyi, amalı, məqsədi, xəyalı olan "Şərq qapısı" qəzetinin vəzifəsi böyükdür. 1921-ci il noyabr ayının 9-dan Naxçıvanda fəaliyyət göstərən və mühiti ən dəqiq, yüksək səviyyədə təsvir edən "Şərq qapısı" bu gün də Naxçıvan mühitinə ayna tutur, bugünkü inkişafımızı gələcəyə daşıyır.

**✍ Nərgiz İSMAYILOVA**

---

*Muxtar respublikamızda 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar silsilə tədbirlərin keçirilməsinə başlanılmışdır.*

## Ekoloji tərbiyə diqqət mərkəzindədir



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər, Təhsil nazirlikləri, Ali Məclisin Sədri yanında Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi gənc fəalların ekoloji biliklərinin zənginləşdirilməsi, onlarda təbiətə məhəbbət hissinin aşılanması üçün tədbirlər keçirir. Həyata keçirilən ekoloji maariflənidirmə tədbirlərində xüsusi estetik gözəlliyi olan təbiət ərazilərinə, təbiət parklarına, milli park və yasaqlıq ərazilərinə ekoturizm marşrutları üzrə gəzintilərin təşkili, təbiət abidələri ilə tanışlıq və təmizlik aksiyalarının keçirilməsi nəzərdə tutulmuşdur.

Dünən özünün ekoturizm potensialı ilə diqqəti cəlb edən Batabat yaylağına ekskursiya-gəzinti təşkil olunmuşdur. Tədbirdə 50 nəfərdən çox təbiətsevər gənc iştirak etmişdir. Gənclər əvvəlcə yaylağın fauna və flora aləmi, təbiət abidələri ilə tanış olmuş, bu haqda onlara geniş məlumat verilmişdir. Sonra tədbir iştirakçıları ərazinin təbiət gözəllikləri olan "Zor bulaq", "Üzən ada" kimi təbiət əraziləri haqqında məlumatlandırılmışlar. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmış məlumat bukletləri gənclərə paylanmış, istirahət guşələrində təmizlik aksiyası keçirilmişdir. Bu tədbirlər digər ekoturizm potensialı olan təbiət ərazilərində də davam etdiriləcəkdir.

**✍ Əli CABBAROV**

---

## Sağlamlıq imkanları məhdud uşaqlar "Nəğməkar bülbül" tamaşasına baxıblar

***Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlar üçün müntəzəm olaraq Naxçıvan Dövlət Uşaq və Kukla teatrlarında tamaşalar göstərilir, yay tətili günlərində onların Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilir.***

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ərəfəsində bu qəbildən olan uşaqların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə silsilə tədbirlər diqqət mərkəzində saxlanılıb.

Bu tədbirlərin davamı kimi, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında sağlamlıq imkanları məhdud uşaqlar üçün "Nəğməkar bülbül" tamaşası nümayiş etdirilib.

Tamaşa uşaqlar tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

---

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Şərur rayonunun Axaməd icmasının tender komissiyası icma qrupunun hazırladığı "Yolun bərpası" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *maraq məktubu*
* *nizamnamə*
* *maddi-texniki və insan resursları barədə məlumat*
* *son üç ildə icra etdikləri işlər haqqında məlumat*
* *maliyyə vəziyyəti barədə arayış.*

Qeyd olunmuş sənədlər toplusunu 10 iyun 2015-ci il saat $18^{00}$-a kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Şərur rayonu, Axaməd kəndi, tender komissiyası icma qrupunun sədri Arif Yusifov***
***Əlaqə telefonu: (050) 422-69-80***


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 431